# "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 yanvar tarixli 847 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları" və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 2 iyun 2003-cü il
№ 75

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2003-cü il 2 iyun tarixli 75 nömrəli qərarı
ilə
TƏSDİQ EDİLMİŞDİR

## Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi QAYDALARI

### I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 yanvar tarixli 847 nömrəli Fərmanının icrası ilə əlaqədar hazırlanmışdır və ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının (bundan sonra – dövlət proqramları) tərtib edilməsi, hazırlanması, qəbul edilməsi və dərc olunması qaydalarını müəyyən edir.

1.2. Dövlət proqramlarının məqsədi ictimaiyyət arasında ekoloji tərbiyə, təbliğat, təhsil və maarifləndirmə üzrə dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətə uyğun sistemli və kompleks tədbirlərin həyata keçirilməsini təmin etməkdən ibarətdir.

1.3. Dövlət proqramları təhsil və maarifləndirmənin xüsusiyyətlərini nəzərə almaqla ətraf mühitin mühafizəsinə, ekoloji tarazlığın və bioloji müxtəlifliyin qorunub saxlanılmasına, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və bərpasına dair bütün sahələri, eləcə də bir və ya bir neçə sahəni əhatə edə bilər.

### II. DÖVLƏT PROQRAMLARINA DAİR ƏSAS TƏLƏBLƏR

2.1. Dövlət proqramları hazırlanarkən ətraf mühitə, ekologiya, insan və təbiət arasında qarşılıqlı əlaqələrə və ekoloji mədəniyyətin formalaşmasına yönəldilmiş ekoloji bilik və təcrübə əsas götürülür.

2.2. Dövlət proqramlarında hər kəsin təbiətə qayğı və məsuliyyətli münasibət bəsləməsi ruhunda tərbiyə olunması üçün müvafiq müddəalar öz əksini tapmalıdır.

2.3. Dövlət proqramlarının layihələri ictimaiyyətlə müzakirə edilməli və bu müzakirələrdə əhalinin geniş iştirakına şərait yaradılmalıdır.

## III. DÖVLƏT PROQRAMLARININ HAZIRLANMASI

3.1. Dövlət proqramları Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının təhsil nazirliyi tərəfindən hazırlanır.

3.2. Dövlət proqramlarının hazırlanmasında digər dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları və vətəndaşlar iştirak edə bilərlər.

3.3. Dövlət proqramları hazırlanarkən ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən, o cümlədən qeyri-ənənəvi enerji mənbələrindən səmərəli istifadə, biotexnologiya, ekoloji proseslərin və biosistemlərin riyazi modelləşdirilməsi, ekoloji idarəetmə və s. sahələr üzrə elmi-texniki nailiyyətlərə dair, habelə əhalinin ekoloji təhsili və maarifləndirilməsi istiqamətində estetik zövq və vətəndaş mövqeyinin formalaşmasına, bu sahədə emosional və intellektual həssaslığın tərbiyə olunmasına dair təkliflər nəzərə alınır.

3.4. Dövlət proqramları hazırlanarkən beynəlxalq təcrübədən istifadə olunur.

3.5. Dövlət proqramları "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan Ekoloji Təhsil və Maarifləndirmə üzrə Sahələrarası Komissiyanın rəyi nəzərə alınmaqla Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Təhsil nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

## IV. DÖVLƏT PROQRAMLARININ DƏRC EDİLMƏSİ

4.1. Dövlət proqramlarının layihələri ictimaiyyətin müzakirəsinə kütləvi informasiya vasitələrində dərc edilməklə və ya elektron informasiya şəklində verilə bilər.

4.2. Təsdiq olunmuş dövlət proqramları kütləvi informasiya vasitələrində dərc olunur.